# Zizik kəndinin Şahin zirvəsi



***Bilmirəm, təsadüfdür ya zərurət – Şahin, Şuşa və Şəhadət hər üçü başlanğıcını Ş hərfindən almaqla bir-biri ilə vəhdət təşkil edir və ahəng yaradır. Adı kimi mərd, Şahin kimi düşmənin üzərinə şığıyan, Azərbaycanın alınmaz qalası Şuşa uğrunda Şəhadət şərbətini dadaraq hər oğula nəsib olmayan Şanlı Zirvəyə yol alan Şahinin rəşadətlə zəngin 28 illik ömür yolu Qubadan başlayıb və döyüş yolu Şuşada bitərək şərəflə əbədiyyət dərgahına doğru şahə qalxır...***

***Tarixi e.ə. I minilliyə qədər gedib çatan, vətənimin cənnət guşəsi, Quba rayonunda Qudyal çayının sağ sahili boyu maili təpələr üzərində qərar tutan Zizik kəndi füsunkar təbiəti, ziyalı, marifpərvər, vətənsevər və xeyriyyəçi nəsilləri ilə əsrlər boyu şöhrət qazanmışdır. Səfalı, qədim Zizik çoxəsrlik tarixi kurqanları, qədirbilən sakinləri, yazıçı, şair və alimləri ilə Azərbaycanın hüdudlarından kənarda, postsovet məkanında da tanınmışdır. Türk mənşəli Zizik toponiminin daşıyıcısı olan qədim kənd ötən yüz illər ərzində tarixin sərt sınaqları ilə üz-üzə qalmış, XX əsrin əvvəllərində - 1918-ci ilin Quba soyqırımı zamanı çarizmin və bolşeviklərin nökəri olan erməni daşnak dəstələrinin vandal əməllərindən əziyyət, zərər çəkmişdir. Keçən əsrin əvvəllərində baş vermiş müstəqillik mübarizəsində Zizik kəndinin dəyərli oğlu, yüksək hərbi təhsilli polkovnik Əlibəy Zizikski (1876-1929) Qubanın və Bakının müdafiə olunması uğrunda aparılan döyüşlərdə, özünün ərsəyə gətirdiyi dəstələrlə azğın daşnaklara divan tutmuş və ermənilərin meydan suladığı sovet hökuməti tərəfindən edam edilərək şəhidlik məqamına yüksəlmişdir. Düşmənin məkirli siyasəti müasir dövrə qədər davam etmiş, havadarlarının ciddi dəstəyi ilə 30 ilə yaxın Qarabağı işğal altında saxlayan, nəhayət 44 günlük Vətən müharibəsində rəşadətli, yüksək döyüş qabiliyyətli Azərbaycan Ordusunun gücü ilə darmadağın edilərək cənnət torpaqlarımız azadlığına qovuşmuşdur.***

“Vətən üçün yaşayanlar yaşadırlar vətəni” – görkəmli tarixçi akademik, millət vəkili Yaqub Mahmudovun bu müdrik kəlamı, qələmə aldığım bu yazıya stimul verən çox dəyərli devizdir. Həqiqətən də belədir, ön və arxa cəbhələrdə vətən üçün çalışanlar, səngərlərdə əldə silah yuxusuz gecələr keçirən əsgərlərimiz bu amalı tarixi Qələbə ilə sübut etdilər, yaşadılar və yaşatdılar. Bu səbəbdən, 2020-ci ilin payızı “44 günlük Vətən müharibəsi” zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması istiqamətində aparılan həlledici müqəddəs döyüşlərdə Qubadan da yüzlərlə əsgər və onlarla zabit yaxından iştirak edərək qəhrəmanlıq dastanları yazdılar. Çox qürurverici haldır ki, belə igid vətən oğulları arasında, yaralı-şəhid döyüş yoldaşlarının, Əlibəy Zizikski kimi vətən övladlarının qisasını alaraq ölümün gözünə dik baxan, şəhadəti ilə özü də ölümsüzlüyə qovuşan zizikli kəşfiyyatçı, baş gizir Allahyarov Şahin Hüseynbala oğlu da var.

*Şəhadəti ilə Vətən torpağına can verən və adı rayon mərkəzində küçəyə verilən Qubanın şəhidi, elinin, obasının – Zizik kəndinin, hətta Bütöv Azərbaycanın ŞAHİN ZİRVƏSİ olaraq əbədi qalacaq O!!! Çünki o, 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Zəngilanın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə rəşadətlə savaşıb. Çünki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlər və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən məxsusi qəhrəmanlıq nümunəsi göstərən, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirən baş gizir Şahin Allahyarova şəhadətindən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib*

Düz 28 il bundan əvvəl, qarlı qış günündə (29.01.1993) Qubanın Zizik kəndində dünyaya göz açan Şahin, şəhid Ə.Rüstəmov adına kənd orta məktəbində 1999-2010-cu illərdə təhsil alarkən, hər bir azərbaycanlı kimi, Vətən torpağına göz dikən quldur-qaniçən ermənilərin işğal siyasəti onu da dərindən sarsıtmışdı. Hərbi sahəyə olan yüksək marağı və torpaqlarımızı işğaldan azad etməyə can atması, onu həqiqi hərbi xidmətdən sonra Silahlı Qüvvələrin Tədris Təlim Mərkəzində gizir hazırlığı üzrə təhsil almağa, hərbi kəşfiyyat sirrlərinə yiyələnməyə yönəldir. Daha sonra Dövlət Sərhəd Xidmətinin Qazax, bir müddət sonra Zaqatala və Balakən rayonlarının “N” saylı hərbi hissələrində xidmət edir. Yurdun bir çox qaynar bölgələrində də vətənin keşiyini çəkən Şahin Azərbaycanın alınmaz qalası, mədəniyyət beşiyi Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmaqla yüksək məqama yüksəlir...



1 noyabr 2020-ci il, Şahinin yüksək zirvəyə - şəhidlik məqamına ucalmasıyla, onunla qürur duyacaq ailəsini, qohumlarını, 11 il bir parta arxasında əyləşdiyi məktəb yoldaşlarını, hərbi məktəbdə birgə təhsil aldığı kursant qardaşlarını, ağır gündə ona dayaq olan döyüş dostlarını və onun xatirəsini daim əziz tutacaq müzəffər xalqını cismən tərk edib əbədi dünyaya qovuşduğu anım günü! İgid övladını həyatı qədər sevən Nərgiz ananı, Hüseynbala atanı, həyat yoldaşı Kəmaləni, körpə qızı Aksananı və 28.12.2020-ci il tarixdə onun şəhadətindən 57 gün sonra doğulan, adını yaşadan oğlunu özündən sonra bir iz, bir nişanə olaraq yadigar qoyub sevənlərinin qəlbində özünə əbədi taxt qurdu. İndi Allahyarovlar ailəsini ziyarətə gələnlərin ardı-arası kəsilmir, böyükdən kiçiyə qədər əksər yurddaşlarımız şəhid Şahinin ailəsinə baş çəkir, təskinlik verir, bu evi, bu ocağı müqəddəs vətən məkanından bir parça bilir, onun məzarını da əziz tutur və şəhidin pak ruhuna dualar oxuyurlar. Döyüş yoldaşları qəhrəman Şahin haqqında kövrək xatirələrini dilə gətirir, onun erməni quldurları ilə apardığı amansız mübarizədən, çarpışmadan söhbət açır, çevik bir keşyiyyatçı kimi disiplinli olduğunu və sərrast atıcı kimi hədəfi dəqiq nişan aldığını qeyd edirlər. ***Qəhraman Şəhidimizin valideynlərinə, ailəsinə qaynar döyüş bölgəsindən yolladığı sonuncu video müraciət onun vətəninə, torpağına nə qədər ürəkdən bağlı olduğunu, ailə dəyərlərinə necə sadiq qaldığını açıq şəkildə göstərir: “...Anam, atam canım qurban sizə, mən bəlkə demişəm, deməmişəm bilmirəm, bir ömür həmişə istəmişəm ki, siz mənimlə fəxr edəsiniz. Fəxr etməyinizi istəmişəm ki, mənim kimi oğlunuz var.... bütün ailəmdən, qohum qardaşımdan axırıncı xahişim budur ki, həmişə başınızı dik saxlayın, qurban olaram sizə, daim başınızı dik tutun, ağlamayın, heç vaxt ağlamayın... çünki, mən başınız dik olsun deyə gedirəm döyüşə... qaçıb gizlənə bilərəm, amma gizlənməyəcəyəm... çünki, sizin -anamın, atamın mənə verdiyi tərbiyə, qeyrət, namus məni qoymaz ki, qaçıb gizlənim... Siz bilin ki, Şahin haqq yoluna gedir, sizi qorumağa gedir, öpürəm sizi. Ailəm – anam, atam sizdən xahiş edirəm, məni necə istəyirsinizsə, mənim ailəmi də, övladlarımı da, yoldaşımı da elə istəyin..”.*** Bəli, Şahin haqq uğrunda, vətən uğrunda getdi, getdi ki, xalqı yaşasın və şəhadətə ucalan şəhidlərinin əziz xatirəsini əbədi yaşatsın. Bizlər, hər bir azərbaycanlı, vətənin müstəqilliyi yolunda canından keçmiş bütün şəhidlərimizlə fəxr edir, ərazi bütölüyümüz uğrunda döyüşlərdə yaralanaraq qazi olmuş ya haqq dünyasına qovuşmuş igid hərbçilərimizlə qürur duyuruq!!

Şəhidin valideynləri və həyat yoldaşı TV-lərə verdiyi müsahibələrində Şahinin yüksək hərbi hazırlığı və arzuları haqqında danışmışlar. Qəhraman kəşfiyyatçının atası Hüseynbala müəllim övladının son günlərini belə dilə gətirib: “Arzuları çox idi onun... yarası sağalsın deyə on gün qalmalı idi, beşinci gün hospitaldan qaçaraq, “mən döyüşə gedirəm” -deyib. Komandir soruşub, yaralı halda nəyə görə gəlmisən, deyib “əgər yoldaşlarım vuruşursa mən kənarda qala bilmərəm”. Deyiblər ki, heç olmasa bir-iki gün dincəl, inanın Allaha, mənə döyüş dostları deyirdilər ki, Şahinin son sözləri belə olub ”o vaxt dincələcəyəm ki, vətənimiz, torpaqlarımız, Şuşamız azad olsun”. Əziz Şahin! Sənin, vətənin ərazi bütövlüyü ilə bağlı arzuların gerçəkləşdi, rahat uyu məzarında yurdumun igid övladı! Şəhidin həyat yoldaşı Kəmalə xanım Şahin haqqında səmimi hisslərini ifadə edərək deyir: “Onun xidmət etdiyi bölgələrdə yanında daima mən olmuşam, həmişə deyirdi ki, "hərənin bir peşəsi var, hərə bir cür Azərbaycana, vətənə xidmət edir, biz də bu cür xidmət edirik...”. Bəli, o hər şeyi gözə alıb Vətənə əsgər olmağı seçdi, seçdi ki, Azərbaycan yaşasın, dövlətinin gələcəyi olan körpə balalar onunla bir ömür fəxr etsin. Çünki, onu, bütün arzuları, dəyərlərin fövqündə dayanan Vətən çağırırdı...



Şahin üçün son savaş olan, Şuşa uğrunda gedən qızğın döyüşlərdə qəlbi və bütün varlığı ilə sevdiyi Vətən yolunda, quduz düşmənin açdığı güllə ilə üreyindən aldığı yara ilə şəhadətə-əbədiyyətə qovuşur. Döyüş yoldaşları Şahinlə bağlı cəbhə xatirələrini canlandırarkən, dostları arasında “Qara pantera” ləqəbi ilə tanınan Vətən oğlunun şücaətindən bəhs edirlər. Məlum olur ki, son Şuşa döyüşlərində Şahin neytral zonada 6 nəfər şəhid olmuş və yaralanmış əsgərlərimizi 100 metr məsafə aralığında, yerə uzanıb sürünə-sürünə bir-bir öz ərazimizə keçirmişdir.

***Şəhadəti ilə Vətən torpağına can verən və adı rayon mərkəzində küçəyə verilən Qubanın şəhidi, elinin, obasının – Zizik kəndinin, hətta Bütöv Azərbaycanın ŞAHİN ZİRVƏSİ olaraq əbədi qalacaq O!!! Çünki o, 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Zəngilanın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə rəşadətlə savaşıb. Çünki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlər və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən məxsusi qəhrəmanlıq nümunəsi göstərən, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirən baş gizir Şahin Allahyarova şəhadətindən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. Çünki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı əsgəri borcunu şərəflə yerinə yetirən Şahin Allahyarov İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən “Vətən uğrunda” medalı, 29.12.2020-ci il tarixli Sərəncamına əsasən “Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilib!! Keçmişimizi xəcatlərdən təmizləyən, gələcəyimizə işıq saçan qəhraman şəhidlərimizə sevgimiz, sayğımız sonsuzdur!!***

**Aqil.P.ƏHMƏDOV**
**Dosent, tarix üzrə fəlsəfə doktoru,**
**AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi**